# Dünya liderləri BMT Baş Assambleyasının 80-ci sessiyasına toplaşırlar

**Bu gün Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyası işə başlayır. Bu, BMT-yə üzv olan bütün dövlətlərin liderlərinin öz prioritetlərini təqdim və əsas qlobal məsələləri müzakirə etdikləri ən böyük beynəlxalq diplomatik tədbirlərdən biridir.**



Sentyabrın 29-dək Nyu Yorkda BMT Baş Assambleyasının 80 illik yubileyinə həsr olunmuş 80-ci sessiyası "Birgə işləmək: Sülh, İnkişaf, İnsan Haqları naminə 80 il birlikdə çalışmaq və irəliyə doğru yol" mövzusunda keçiriləcək.

Sessiyanı BMT-nin Baş katibi Antonio Quterreş açacaq. Almaniyanın keçmiş xarici işlər naziri Annalena Berbok 80-ci sessiyaya sədrlik edəcək.

BMT Baş Assambleyasına 150-yə yaxın dövlət və hökumət başçısının, eləcə də çox sayda nazirlərin, vitse-prezidentlərin, diplomatların, vətəndaş cəmiyyəti nümayəndələrinin və jurnalistlərin qatılacağı gözlənilir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sessiyada iştirak etmək üçün sentyabrın 21-də Nyu Yorka gəlib. Onun BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışı sentyabrın 23-ü Bakı vaxtı ilə saat 19:00-a təyin edilib. Bu, Rəcəb Tayyib Ərdoğanın BMT Baş Assambleyasında 15-ci çıxışı olacaq. Türkiyə liderinin çıxışında Yaxın Şərqdə yaranmış vəziyyətə diqqət çəkəcəyi gözlənilir.

Kanada, Avstraliya, Böyük Britaniya və Portuqaliya BMT Baş Assambleyasının 80-ci sessiyasının açılışı ərəfəsində Fələstin dövlətini tanıdıqlarını elan ediblər. ABŞ Dövlət Departamenti isə Fələstin Prezidenti Mahmud Abbas və onu müşayiət edən rəsmilərə Baş Assambleyada iştirak etmək üçün viza verməyib. Bununla bağlı Fələstin liderinin videobağlantı vasitəsilə qarşıdakı sessiyada çıxış edəcəyi gözlənilir.

İsrailin Baş naziri Benyamin Netanyahunun sentyabrın 26-da BMT Baş Assambleyasında çıxışı planlaşdırılıb.

Əhməd əl-Şara 1967-ci ildən bəri Assambleyada çıxış edən ilk Suriya Prezidenti olacaq. Onun BMT Baş Assambleyasının tribunasından çıxışı sentyabrın 24-nə təyin edilib.

Ukraynadakı müharibə ilə yanaşı, digər ciddi münaqişələr və böhranlar, o cümlədən Sudan, Livan, Yəmən və Haitidəki vəziyyət BMT Baş Assambleyasının və ikitərəfli görüşlərin əsas mövzuları olacaq.

Xatırladaq ki, 51 təsisçi üzvdən ibarət olan Birləşmiş Millətlər Təşkilatının ilk Baş Assambleyası 1946-cı ildə keçirilib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 23 sentyabr (№203).- S.12.